**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AFFİRMATİVLİYİN KOQNİTİV TƏHLİLİ (İNGİLİS DİLİ MATERİALLARI ƏSASINDA)

İxtisas: 5708.01 – "German dilləri"
Elm sahəsi: Filologiya

İddiaçı: **Türkan Mehrac qızı İsmayıllı**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Naxçıvan – 2022**

Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin "İngilis dili və tərcümə" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Filologiya elmləri doktoru, professor
**Əfqan Əli oğlu Abdullayev**

Rəsmi opponentlər: Filologiya elmləri doktoru
**Fidan Afad qızı Qaraqurbanlı**

Filologiya üzrə fəlsəfə doktoru, dosent
**Bəylər İslamxan oğlu Hacıyev**

Filologiya üzrə fəlsəfə doktoru
**Aynur Müzəffər qızı Ağazadə**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Naxçıvan Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD 2.39 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor
**Əbülfəz Aman oğlu Quliyev**

Dissertasiya şurasının elmi katibi: Filologiya üzrə fəlsəfə doktoru, dosent
**İman Zeynalabdin oğlu Cəfərov**

Elmi seminarın sədri: Filologiya elmləri doktoru
**Pərviz Yasinəli oğlu Ağayev**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ.

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Son dövrlərdə koqnitiv dilçiliyin inkişafı Azərbaycan ingilisşünaslığında da bir sıra linqvistik kateqoriyaların koqnitiv baxışdan araşdırılmasını tələb edir. Koqnitiv linqvistika dilçiliyin yeni bir qolu olduğuna görə onun nəzəri məsələləri və tədqiqat metodlarında müzakirəli məsələlər çoxdur. Dilin leksik sistemi, dil vahidlərinin çoxluğu və onlar arasında qarşılıqlı münasibətlər olsa da, onlar koqnitiv baxışdan ətraflı araşdırılmalıdır. İngilis dilinin qrammatika bölməsində mövcud olan inkarın əksi olan təsdiq (affirmasiya) koqnitiv dilçilikdə daha geniş bir kateqoriyadır və indiyə qədər koqnitiv baxışdan tədqiqata cəlb edilməyib. Universal dilçilik hadisəsi olan affirmativlik bütün dillərdə və dil sistemlərinin müxtəlif səviyyələrində müşahidə edilir. O, təsdiq etmənin əsas ifadə vasitəsi olduğuna görə nitq-təfəkkür fəaliyyətində mühüm rol oynayır. Mövzuya müraciət müxtəlif səviyyələrdə affirmativliyin daha dərindən dərk edilməsinin vacibliyi ilə bağlıdır.

Azərbaycan ingilisşunaslığında affirmativlik kateqoriyasının semantik dərəcələnmə, məna və çoxmənalılığın qütbləşməsi kimi məsələləri də indiyə qədər tədqiqat obyekti olmamış, yəni bu kateqoriya bu günə qədər koqnitiv baxışdan sistemli şəkildə araşdırılmamışdır. Tədqiqat işində affirmativliyin sistemli şəkildə araşdırılması, bu kateqoriyanın semantik dərəcələnmə, məna və qütblənməsi mövzunun aktuallığını şərtləndirir.

Bu gün ingilis dili materialları əsasında affirmativliyin tədqiqinin öyrənilməsi həm də ona görə vacibdir ki, artıq xarici dilin elə həmin dilin özündə düşünərək, dərk edərək daha mükəmməl öyrənilməsi nəzəriyyəsi praktikada sübut olunmuşdur. Ana dili ingilis dili olmayan insanların xarici dildə ünsiyyət qurması, oxumaq prosesində təsdiq etməni necə başa düşməsi, onların bu kateqoriyanın qarışıq linqvistik semantikasını necə dərk etməsi məsələləri affirmativliyin koqnitiv təhlili tələbini üzə çıxarır. Çünki, müasir dilçilik insan amili ətrafında formalaşır. Koqnisiya termini məlumatın insan beynində necə dərk edilməsini öyrənməyə çalışır[1]. Son dövrlərdə istər Azərbaycan

[1] Dilçilik ensiklopediyası (prof. F.Veysəllinin redaktəsi ilə). II cild / – Bakı: Mütərcim, – 2009. – 528 s.

dilçiliyində, istərsə də germanşünaslıqda həm koqnitologiya, həm də dilin linqvo-psixoloji problemləri ilə əlaqəli araşdırma və tədqiqatların sayının sürətlə artmasının bir çox obyektiv səbəbləri vardır. Ən əsası ona görə ki, dil linqvo-psixoloji fenomen mahiyyəti daşıyır və dildəki bütün kateqoriya və anlayışlar ünsiyyət məqsədini ödəməyə xidmət edir. Affirmativliyin funksional-semantik işlənişi, linqvistik strukturun müxtəlif səviyyələrində ifadə edilməsi, onun mental proses olması bu kateqoriyanın koqnitiv analizinə maraq yaratmışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti müasir ingilis dilində affirmativlik kateqoriyasının göstəriciləridir. Tədqiqatın predmetini affirmativliyin funksional-semantik kateqoriya çərçivəsində linqvistik və qeyri-linqvistik vasitələrlə hiyerarxik analizi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. İngilis dili materialları əsasında müxtəlif dil səviyyələrində koqnitiv affirmasiyanın öyrənilməsi dissertasiya işinin əsas məqsədini təşkil edir. Bu məqsədə müvafiq aşağıdakı vəzifələrin həlli nəzərdə tutulmuşdur.

- Dilçilik və fəlsəfi mənbələrdən affirmativlik anlayışını tədqiq etmək.
- Affirmativliyin kommunikativ-koqnitiv mahiyyəti və məqsədini təyin etmək. Affirmativlik kateqoriyasını real dil fəaliyyəti daxilində göstərmək.
- Affirmativliyin semantik hadisə kimi özünəməxsus cəhətlərini aşkar etmək.
- Affirmativliyi müxtəlif dil səviyyələrində və digər dil kateqoriyaları ilə əlaqədə tədqiq etmək.
- Affirmativliyin paralinqvistik ifadə vasitələri ilə dərk edilməsini təhlil etmək.
- Affirmativliyi tamlılıq, təsdiqlilik, əlavə etmə kimi koqnitiv idrak meyarlarına görə təyin etmək.
- Affirmativliyin müxtəlif elmlərlə, xüsusilə, psixologiya və fəlsəfə ilə əlaqəsini və onun insanın psixoloji idrakına təsirini müəyyənləşdirmək.
- Affirmativliyin leksik, sintaktik və qrammatik vahidlərini incələmək.
- Koqnitiv dilçilik modellərini təyin etmək.
- Affirmativliyi modallığın ifadə forması kimi müəyyənləş-

dirmək.

- Qradual affirmativ modallığı analiz etmək.
- Affirmativliyin dərk edilməsində koqnitiv konstruksiyaları təyin etmək.

**Tədqiqat metodları**. Qarşıya qoyulan məsələlər üçün dissertasiya işində semantik interpretasiya, koqnitiv və kontekstlə bağlı təhlili özündə ehtiva edən metodlar məcmusundan istifadə olunmuşdur. Tədqiqat işində əsasən təsviri metod, müşahidə metodu, strukturalist tədqiqat metodu, linqvistik analiz, kontekstual təhlil, diskursiv təhlil və müqayisə metodundan istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılacaq müddəalar**:

1. Digər modallıq kateqoriyaları kimi, affirmativlik də modallığın ifadə vasitəsidir. Digər modallar kimi affirmativ modallar leksik, semantik və praqmatik olaraq dərk edilir. Bunlarla yanaşı, daxilində mövcud olan subyektivlik xüsusiyyəti affirmativliyi modallığın tam bir kateqoriyası hesab etməyə əsas verir.

2. Affirmativlik kultural fərqlilikləri nəzərdə saxlamaqla qeyri-linqvistik ifadə vasitələri ilə ifadə edilə bilir.

3. Affirmativlik linqvistik əsaslı kateqoriyadır, çünki digər linqvistik kateqoriyalar kimi xüsusi bir ikonik motivasiya ilə ortaya çıxır. Affirmasiya insanın idrakında əhatəlilik, tamlıq, bütövlük, varlıq şəkilləri oyadan idrak "cığırları" ilə əlaqəlidir.

4. Affirmativliyə mexaniki bir prosedur olaraq baxıla bilməz. Konstruksiyalar affirmativ markirələrinin yaxşı namizədləridir. Çünki onlarda daxilən affirmativ xüsusiyyəti vardır və fikrin pozitiv mənasını vurğulayırlar. Affirmativlik özü təkcə formal xüsusiyyəti olan yox, həm də dərəcəvi semantik prosesdə olan ünsiyyət aktında iştirak edənlərin aktiv iştirakını tələb edən və ifadəsində alternativ keçidlərə imkan verən konstruksiya olaraq başa düşülməlidir. Beləliklə, affirmativliyə vəziyyətdən-vəziyyətə spesifik konfiqurasiyası dəyişən, bir çox yarımsistemlərə istinad edən kateqoriya kimi baxmaq lazımdır.

5. Affirmativlik kateqoriyası digər dil kateqoriyaları ilə sıx əlaqədədir.

6. Affirmativlik koordinatları dəyişkən olan qradual kateqoriyadır, zəif və güclü affirmativlik, eyni zamanda aşkar və gizli

affirmativlik yaradıla bilir.

**Tədqiqatın elmi yeniliyi**. Tədqiqatın elmi yeniliyi affirmativliyin növlərini, onların verballaşması zamanı koqnitiv modelləşmənin – konstruksiyaların rolunu nəzərdən keçirməkdən, dil sisteminin mühüm semantik kateqoriyası olaraq affirmativlik kateqoriyasının semantik dərəcələnmə, məna və çoxmənalılığının qütbləşməsini araşdırmaqdan və affirmativliyin modallığın ifadə olunmasındakı imkanlarını təhlil etməkdən ibarətdir.

- Dissertasiyada ilk dəfə olaraq Azərbaycan ingilisşünaslığında affirmativliyin koqnitiv aspektdən linqvistik və qeyri-linqvistik ifadə vasitələri tədqiqata cəlb edilərək araşdırılmışdır.

- İngilis dilinin inkişafı, onun beynəlxalq dil olması tələb edir ki, insan dilinin ən geniş yayılmış kateqoriyalarından olan affirmativlik funksional-semantik müstəvidə analiz edilsin. O, kommunikativ nitq aktı kimi müxtəlif funksional dil səviyyələrində tədqiqata cəlb edilmişdir.

- Tədqiqat işində affirmativliyə koordinatları dəyişkən olan semantik kateqoriya kimi yanaşılmışdır.

- Koqnitiv paradiqma çərçivəsində affirmativlin ilk dəfə olaraq qradual, implisit, eksplisit, praqmatik vahidləri təhlil edilmişdir.

- Dissertasiya işində, həmçinin, affirmativləri formalaşdıran çoxsaylı konstruksiyalar və yarımkonsktruksiyalar ətraflı tədqiqata cəlb edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Tədqiqatın nəzəri əhəmiyyətinə gəldikdə qeyd olunduğu kimi koqnitiv linqvistikanın nəzəri bazasında dillərin ən universal hadisəsi sayılan affirmasiyanı öyrənmək üçün zəmin yaradılır. Xarici dil kimi ingilis dilinə olan marağın artması, dil öyrənənlərin və dil daşıyıcılarının affirmativliyi idrak etməsi məsələləri, affirmasiyanın insan idrakının mərkəzində dayanması, onu koqnitiv dilçiliyin maraq dairəsinə salmışdır. Belə olmasaydı affirmativlik bu qədər maraqlı bir tədqiqatın mövzusu olmazdı.

Tədqiqat işi tərcümə və leksikoqrafik təcrübədə, ingilis və Azərbaycan dillərinin tədrisi praktikasında, koqnitiv dilçilik üzrə xüsusi kurslarda, ali məktəblərin filologiya fakültələrində, bakalavr və magistratura səviyyələri üzrə müəyyən seçmə fənlərin tədrisində, dərs

vəsaitlərinin hazırlanmasında, növbəti elmi tədqiqatlarda faydalı ola bilər.

**Aprobasiya və tətbiqi**. Dissertsiya işinin mövzusu Naxçıvan Dövlət Universiteti Elmi şurasının 27 fevral 2020-ci il tarixli iclasında (protokol №6) təsdiq edilmişdir. Elmi rəhbər filologiya elmləri doktoru, professor Ə.Ə.Abdullayev təyin edilmişdir. Dissertasiya mövzusu 29 sentyabr 2021-ci il tarixdə Respublika Elmi Tədqiqatları Əlaqələndirmə Şurasının Humanitar elmlər üzrə problem şurasının elmi iclasında (protokol №2) 5708.01-"German dilləri" ixtisası üzrə "Affirmativliyin koqnitiv təhlili (ingilis dili materialları əsasında)" adı ilə qeydiyyatdan keçirilmişdir.

Tədqiqat işinin ayrıca bölmələrinin məzmunu Naxçıvan Dövlət Universitetinin "İngilis dili və tərcümə" kafedrasının iclaslarında müzakirə edilmişdir. Tədqiqatın əsas müddəalarına dair 11 məqalə və konfrans materialları (2-si xaricdə olmaqla) çap edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**: Tədqiqat işi Naxçıvan Dövlət Universitetinin "İngilis dili və tərcümə" kafedrasında yerinə yetirilmişdir.

**Tədqiqatın strukturu.** "Giriş" 7 səhifə - 11369 işarə, I fəsil 57 səhifə -100921 işarə, II fəsil 76 səhifə - 129845 işarə, "Nəticə" 5 səhifə - 8350 işarə, istifadə edilmiş ədəbiyyat siyahısı 14 səhifə - 20159 işarə, "əlavələr" 1 səhifə - 1626 işarədir. Ümumi həcmi 160 səhifə – 272270 nişarədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş" hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, tədqiqatın məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, işin elmi yeniliyi, tədqiqatın nəzəri və praktik əhəmiyyəti, eləcə də işin aprobasiyası və quruluşu haqqında məlumat verilir.

Birinci fəsil "**Affirmativlik konsepti**" adlanır, üç paraqrafdan və 1 bölmədən ibarətdir. I fəslin "**Affirmativlik konsepti dilçilik və fəlsəfi tədqiqatlarda**" başlıqlı birinci paraqrafında affirmativlik anlayışı dilçilik və fəlsəfi araşdırmalara əsaslanaraq izah edilir.

Burada filosof və dilçilərin affirmativliyə müxtəlif yanaşmaları araşdırılmışdır. Affirmativlik ilə bağlı problemlər tarixən fikir sahiblərinin diqqətini çəkmişdir. Bu kateqoriyanın izahına dair ilk cəhdlər qədim Yunanıstan və Hindistana gedib çıxır (Vaisheshikv və Nyaya məktəbləri). Bu məktəblərin əsas konsepti affirmativ mühakimələrin ontoloji obyekti kimi dərk edilməsidir. Qədim filosofların əsərlərində affirmasiyanın tədqiqi Aristotelin insan düşüncəsinin iki əks forması kimi hesab etdiyi affirmativlik və neqativliyə əsaslanırdı[2]. Onun müşahidələrinə görə, kimsə tərəfindən inkar olunan hər hansı bir şey haqqında fikir elə affirmasiyadır.

Dəqiq elmlərin qanunlarını nəzərdə tutan affirmasiya, "hər şeyin altında, təməlində var olan" və bilavasitə "dəqiq olan", "sağlam olan", "şübhəsiz olan" mənalarındadır[3]. Aristotel təsdiq ifadələrin inkarlara görə bir çox yöndən əvvəl gəldiyini düşünmüş və "Metafizika" əsərində təsdiqlərin inkarlardan daha yaxşı başa düşüldüyünü (çünki eyni ilə varlığın yoxluğa görə öncəlikli olması kimi, təsdiq olan da inkar edilləni açıqlamaqdadır) söyləmişdir[4]. Sadəcə inkar cümlələr deyil, ümumi olaraq bütün inkar ifadələr təsdiq ifadələrdən daha az məlumat verir. Ancaq inkar ifadələrin vurğulayıcı, gücləndirici bir funksiyası olduğu gerçəkdir. İnkarlar təsdiqlərə görə daha artıq işarələrə sahib olduqları kimi, psixoloji olaraq da daha qarışıq və başa düşülməsi çətindir. Burada vurğulanır ki, əksər filosoflar, dilçilər və psixoloqlar inkarın təsdiqə görə həyata keçdiyini düşünməkdədirlər. Ünsiyyət prosesi zamanı insan onun məqsəd və istəklərini təmin edən ünsiyyəti həyata keçirməyə çalışır. Çünki insan təfəkkürü və idrakı təsdiqlə tamamlanır. Müəllim dərs proqramı hazırlayarkən ona lazım olan mövzuları tərtib edir, şagird məktəb çantasına gündəlik lazım olan dərs kitablarını yerləşdirir. İnsanın ağlı həmişə gərginlik situasiyasından "yumşaq" olan tərəfə istiqamətlənir. İnsan ətrafda olan

---

[2] Wolf, L. Degrees of assertion: / – Ph.D. dissertation / – Ben Gurion University, – 2013. – 204 p.

[3] Lyons, J. Language, meaning and context / J.Lyons. – Bungay, Suffolk: Fontan Paperbacks, – 1981. – 256 p.

[4] Aristoteles. Birinci çözümlemeler / – Ankara: Dost Kitabevi Yayınları,– 1988. – s. 83-84

cisimləri, hadisələri, əşyaları onların işlək olması və ya aktiv olması ilə əlaqələndirir. Yəni insan psixikasında inkara uyğun bir obraz formalaşmır. Əsasən, şifahi nitqdə implisit inkarlıq təsdiq prizmasından ifadə edilir. İnkarların bu tərzdə işlədilməsi xalqların mədəniyyəti ilə əlaqəlidir. İnsanlar arasında münasibətlərin saxlanılması, ünsiyyət vacib olduğu üçün inkarın aşkar yox, məhz gizli formasına müraciət olunur.

Dissertasiya işinin bu paraqrafında müxtəlif mədəniyyətlərdə affirmativlərdən də bəhs edilir[5].

Affirmativliyin ədəbi izahı kifayət qədər asan ola bilər – əminliklə bir şeyin doğru olduğunu vurğulamaq. Buna baxmayaraq, yaxından araşdırarkən görünür ki, bu termin həddən artıq çoxmənalıdır və ilkin olaraq semantik kateqoriyadır.

I fəslin II paraqrafı **"Affirmativliyin əhatə dairəsi və çoxmənalılığı"** adlanır. Dissertasiyanın bu paraqrafında qeyd olunur ki, dildə icad edilən bütün linqvistik vasitələr ünsiyyət zamanı mənanı çatdırmaq məqsədi daşıyır. İnsanlar alternativ yollarla başlarına gələn bir hadisəni və ya vəziyyəti çatdırmaq, analiz etmək gücünə sahibdirlər. İnsanlar təsdiqdə olan fikir və cümlələri müxtəlif məqsədlər üçün istifadə edirlər. Qeyd etdiyimiz kimi, koqnitiv dilçiliyin psixologiya ilə də əlaqəsi vardır. Dissertasiyanin bu bölməsində "self affirmativlər", yəni "öz təsdiqlər" də analiz edilmişdir. Öz dəyər təsdiqlərində bir dəyər vardır, çünki onlar bizim şüuraltı düşüncəmiz, arzularımızı əks etdirməkdə və həyatımızda müəyyən hadisələri gerçəkləşdirməkdə mühüm rol oynayır.

Dissertasiyanın bu bölməsində, həmçinin, affirmativliyin funksional kommunikativ istifadəsi analiz edilir. Affirmativlik geniş şəkildə funksional dil stillərində ifadə edilir, çünki onlar ünsiyyətdə haqqındakı biliklər, inancların əks olunması və danışanın daxili vəziyyətinin ifadəsində mühüm rol oynayır[6]. Danışıq stili dilin faktiki mövcudluğu kimi ifadə edilir və millətin "mental" yeri, onun hər

---

[5] Marcin, G. The Semantics of Affirmation Serbian, Other Slavic Languages and English in Cognitive Analysis / G.Marcin. – 2013. – 122 p.

[6] Ismayilli, T.M.. / Colloquial Expression of the Affirmative Category / –Penza: European Research International Scientific Conference, – February 7, 2022. – 155-158 p.

günkü həyatı, dünyagörüşü, adətləri, düşüncə tərzi, milli dünyagörüşünün idiosinxronizasiyasıdır. Burada affirmativliyin funkisonal semantik kateqoriya kimi həm də məntiqi, psixoloji əsası və modallıq xarakterinin olmasını vurğulamaq yerinə düşərdi. Affirmativliyin funksional semantik kateqoriyası üçün implisit və ya eksplisit affirmativlik tipləri fərqləndirilə bilər. Bu tipli affirmativlik leksik, semantik, morfoloji və sintaktik vasitələrlə verballaşır. Aşkar affirmativlik monosemantik olur və dərhal ifadə edilir. Gizli affirmativlik isə ekspressivdir və birbaşa affirmativ məna ilə əlaqəli deyil, qrammatik vasitələrlə verballaşır. Məsələn, ədəbi dildə o daha mürəkkəb dərin və qavrayışsal proses tələb edir. Konteksdən asılı olur və köməkçi linqvistik vahidlərlə ifadə edilir. Gizli affirmativlik dilin qrammatik səviyyələrində aşkar görünməyən vasitələrlə ifadə edilir. Eyni zamanda qeyd etmək lazımdır ki, əsas nitq hissələri, yəni isimlər, sifətlər, fellər, zərflər affirmativlik kateqoriyasının identifikasiyasının mərkəzinə məxsusdur. Alt qrup affirmativ identifaksiyasına ədatlar, modal sözlər, nidalar və qiymətləndirmə ehtiva edən leksemlərlə təmsil olunan söz-cümlələr daxildir. Hiss-həyəcan bildirən sözlərin gizli affirmativliyin verballaşması üçün işlədilməsi onların müxtəlif insan hisslərini çatdırmaq xüsusiyyətindən irəli gəlir.

Səciyyəvi olaraq ekspressiv affirmativ-cümlələr inkar ritorik suallarla işarə edilir. Affirmativ funksiyada ritorik suallar ona görə üstünlük təşkil edir ki, ritorik suallarda gizlənmiş affirmasiya olur. Ritorik suallarda iki sintaktik məna eyni zamanda baş verir. Sual və fikir ifadə edilir. Fikrimizcə, bu tipli cümlələrin əsas tapşırığı mesajı çatdırmaqdır. Ritorik suallar müəllifin fikirlərinin çatdırılması və ya çatdırılan mesaja emosional reaksiyasıdır. Bu da diqqəti inkarın yalanlanmasına yönəlir və dinləyənin öz mühakiməsini irəli çəkməyə təşviq edir. İmplisit affirmativ ifadəsinə aşağıdakı kriteriyaları da daxil etmək olar: qiymətləndirmə leksemləri kimi çıxış edən zərflər və sifətlər: (perfectly, absolutely, brilliantly, well, cool, pretty, incredibly) (mükəmməlcə, tamamilə, əla, çox yaxşı, kifayət qədər yaxşı, ağlasığmaz dərəcədə) və s.

Danışıq dilində perfectly\ brilliantly\ well\ splendidly\ cool\ extarordinarily\ incredibly\, yəni mükəmməl şəkildə\ əla\ möhtəşəm\ kimi leksemlərdən çox istifadə edilir. Bununla məmnunluq,

cəsarətləndirmə, həyəcan, təşəkkür, sevinc, bəyənmə, səmimiyyət təfsir edilir. *– So how was the concert? It was **cool**! (– Konsert necə keçdi? – "**Möhtəşəm** idi!).*

Alınma olan "yes" bənzərləri: (O.K. All right), leksik vahidlərin iştirakı, inkar vasitələri və sual intonasiyası olmadan cümlələrin formalaşması, affirmativliyin praqmatik mənalarını ifadə edən cümlələrin iştirakı, affirmativ potensiallığın kommunikativ praqmativliyini gücləndirən elementlərin təkrarı, sevinc, mənmunluq, varlıq ifadə edən sabit söz birləşmələrinin iştirakı ilə güclü affirmasiyalar əldə edilir.

Aşkar affirmativliyin ifadə vasitələrindən olan frazeoloji vahidlər də praqmatik olaraq öndədir. *My precious son is the **apple of my eye** (Mənim dəyərli oğlum **gözümün işiğıdır**).* Affirmativliyin morfoloji vasitələrlə ifadəsində "yes" hissəciyi də onun dominant göstəricisidir. Affirmativliyin ötürülməsi vasitələri arasında onun sintaktik göstəriciləri də üstünlük təşkil edir.

İmplisit affirmativliyin ən məhsuldar göstəriciləri sintaktik mərhələdə nəqli cümlələrdir. Affirmativ söz və cümlələr onun dərk edilməsinin birbaşa göstəriciləridir.

Affirmativlik hətta hər bir leksemi nəqli cümlədə məntiqi vurğu ilə gücləndirə bilir. Beləliklə, danışan diqqətini cümlədəki hər hansı sözə yönəldir. Bu da semantik və stilistik olaraq nitq situasiyasında çox mühümdür. Nəticədə, müxtəlif funksional stilistik cümlə variantları ortaya çıxır.

Alternativ suallar sual cümləsi nümunələrinin prototip olmayan nümunələridir. Onlar sintaktik intonasiya və praqmatik olaraq nəql etməni sual ilə birləşdirir. Bu tipli cümlələr bir təsdiqlənmə təklif edir və daha çox istiqamətləndirici funksiyası var. Şəxssiz cümlələr də affirmativ kontekslərin gücləndiriciləridir. *It must be delightful to find oneself in a foreign country with a good friend (Özünü xarici bir ölkədə yaxşı bir dost ilə görmək çox xoş olardı).*

Affirmativ məna təsdiqlilik\bəyənmə, tamlıq ifadə edən frazeoloji birləşmələrlə də ifadə edilə bilir. Məsələn, to hit the very target\ to slap like in eye\ choose the right suit və s.

A: *This year the prices of the driving courses are more expensive. Last year you **chose the right** suit by attending driving*

*courses (Bu il sürücülük kurslarının qiymətləri daha bahalıdır. Keçən il sən kurslara davam etməklə doğru seçim etdin)* [7].

Dissertasiya işinin I fəslinin II paraqrafının I bölməsi "**Affirmativliyin çatdırılmasında jest və mimiklərin rolu"** adlanır və sözsüz bağlantı vasitəsilə affirmativlərin çatdırılmasından bəhs edir. Ünsiyyət vasitəsi olan dil insanlar arasında başa düşülməyi təmin edir və bu proses yalnız sözlü həyata keçmir. Dil danışıldığı ölkənin sərhədləri içərisində keçmişdən bu yana daşıdığı izlər ilə inkişaf edir. Mədəniyyətin dilə qatqısı, dil ilə mədəniyyətin izlədiyi yol həmin ölkənin insanları üçün təyin edici olur. İnsanlar ünsiyyət müddətində duyğularını və düşüncələrini bildirmək üçün haqqında danışılan yerləri bənzətməyə çalışan işarələrdən, simvollardan istifadə edirlər. Onlar bədən hərəkətləri ilə danışıqlarına fərqli mənalar yükləyərək söylədiklərinin təsirini artırırlar. Bütün mədəniyyətlərdə ortaq jestlər vardır, bunların arasında affirmativlik anlayışının çatdırılmasında istifadə edilən jestləri də göstərmək olar[8]. Mədəniyyətdən mədəniyyətə fərqli olsa da, yer üzündəki bütün insanlarda daxilən jestdən istifadə etmək hissi mövcuddur.

Mədəniyyətlərarası fərqliliklər səbəbi ilə qeyri-verbal ünsiyyətdə yanlış anlaşılmalar və ya razılaşmama kimi vəziyyətlər də çox ola bilər. Mübahisə olunmazdır ki, kultural fərqlilikləri bilmək və ona tolerantlıq göstərmək müasir dövrün tələbidir.

Əlbəttə, bədən dili kommunikativ konteksdə bəzən eyni xüsusiyyətləri daşısa da, şifahi dilin yenə də özünəxas xüsusiyyətləri vardır.

İstənilən sahənin insanları peşələri səbəbi ilə müxtəlif jest vərdişləri qazana bilir. Məsələn, maşın ustası motor, avtomobillər, qaraj, hətta istifadə etdiyi müxtəlif alətlərin adlarının təsiri ilə müxtəlif fərqli jestlərdən istifadə edir. Coğrafiya dərsində müəllimin əllərinin kğməyi ilə dünyanın fırlanmasına işarə etməsi və ya yer üzündəki dağları göstərə bilmək üçün əllərini və qollarını aşağı-yuxarı hərəkət

[7] IELTS 13 Cambridge English Academic / –Malaysia: Cambridge University Press, – 2017. – 104 p.
[8] Cienki, Alan. Gesture and (cognitive) linguistic theory / In R. Caballero Rodriguez, M. J. Pinar Sanz (eds). – London: –Ways and modes of human communication, – 2012. – 45-56 p.

etdirməsi, coğrafiya müəlliminin bu nümunədə izah etdiklərinə dəstək olmaq məqsədi ilə sözlü izahı dəstəkləyən jestlerdən istifadə etməsidir. Burada məqsəd sadəcə öyrənənin diqqətini dərsə toplaya bilmək, motivasiyanın artırılmasıyla birlikdə öyrənmə müddətinin sürətləndirilməsidir. Yüksək təhsilli insanlar belə gündəlik ünsiyyətlərində müxtəlif jestlərdən istifadə edirlər. Vətən müharibəsi zamanı Cənab Prezidentimiz İlham Əliyev hər dəfə Ordumuzun mənfur düşmənə qalib gəlib bir rayonumuzun işğaldan azad edilməsi xəbərindən sonra yumruğunu sıxıb bir jest edərdi. Bu, xalqımızın, ordumuzun möhkəm olması, bir olması rəmzi idi. *"Iron Fist" is not just strength, it's unity*[9] (*"Dəmir yumruq" güc və birlik rəmzidir*). Demək olar ki,"Dəmir yumruq" dünyada bilinən bir jest oldu.

Şifahi olmayan mesajların mənası mədəniyyətlər, irqlər və bəzən cinslər arasında da fərqlənə bilir. Əvvəlki toplumlarda insanların ov, döyüş və buna bənzər hadisələrdən əvvəl üzlərinə sürtdükləri boyalar, rəssamlara poz verən kralların əllərindəki iqtidar simvollari, ordulara aid bayraqlar, gerblər və s. bir növ ünsiyyət vasitəsi idi[10].

Jestlər nitq zamanı məlumatötürmə funksiyası da daşıyır. Eyni mədəniyyətdən gələn insanlar jestlərdən qeyri-ixtiyari şəkildə şifahi ünsiyyəti tamamlamaq üçün istifadə edirlər. İnsanlar eyni dili danışmayanda şifahi olmayan ünsiyyət əsas mühüm vasitə olur. İnsanlar interkultural ünsiyyət zamanı şifahi olmayan ünsiyyətdə bir cığır axtarırlar. Bütün bunlar onu deməyə əsas verir ki, jestlər və nitq bir bölünməzdir. Semantik baxımdan da ayrılmaz bir ikilidir, sistem halındadır[11].

I fəslin **"İnkarlığın ifadə etdiyi affirmativlik"** başlıqlı III paraqrafında isə müxtəlif inkar yollarla ifadə olunan affirmativlərdən

---

[9] Azərbaycan Televiziyası //https://aztv.az/en/resmi/prezident-i-lham-liyev-bu-gun-az-rbaycan-xalqi-yumruq-kimi-birl-sib

[10] Liu, S. Introducing Intercultural Communication / London: Global Culture and Context / S. Liu, Z.Volcic, C. Gallois. – Sage, – 2010. – 398 p.

[11] İsmayıllı, T.M. Affirmativlik anlayışının çatdırılmasında paralinqvistik ifadə vasitələrinin rolu / – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri. – 2021. № 1 (110), – s.82-86

bəhs olunur. Morfoloji olaraq inkar işarəli, təsdiq isə işarəsizdir. Markirə olunmamış üzv semantik olaraq daha neytral və neytrallaşmağa meyllidir. Affirmativlik müxtəlif səviyyələrdə inkarlılıq vasitəsilə ifadə edilə bilir. Bütün bu hallarda əsl neqativ ifadələri ziddilik sistemi çərçivəsində dəyişiklikliyə uğrayaraq affirmativ kimi şərh edilir[12].

Qrammatikada bizim bildiyimiz təsdiq və inkar cümlələr ayırımı var. Qrammatik qaydalara görə bütün cümlələr inkarlaşa və ya əksinə təsdiq olaraq dəyişə bilər. Amma məntiqi cəhətdən inkarlaşan və ya təsdiqlənən bütün cümlələr doğru ola bilərmi? Everybody needs good health (Hər kəsin yaxşı sağlamlığa ehtiyacı vardır) cümləsini qrammatik qaydalara görə inkara salmaq mənaca məntiqli olmur. Koqnitiv dilçilik deyilmiş cümlənin idrakına, mənasına, insanın hansı psixoloji durumunda deyilməsinə, qarşı tərəfin bunu necə dərk etməsinə diqqət yönəldən bir dilçililik sahəsi olduğuna görə inkarlarla praqmatik şəkildə dərk edilən affirmativlərin analizini daha yaxşı ortaya qoyur. Dissertasiyanın bu hissəsində müxtəlif inkar yollarla ifadə edilən affirmativlər qruplaşdırılaraq analiz edilmişdir. İnkarlar vasitəsilə affirmativlik ifadə edilməsi obyektin affirmativ zonaya aktiv köçürülməsi prosesidir və müəyyən kontekstual şərtlərdə affirmativ işarələri olan köməkçi vasitələrdir. Affirmativliyin inkarlarla ifadəsi cümlənin semantik istiqamətindən asılıdır və əlavə modal çalarlar ortaya çıxır. İki kateqoriya arasında çox fərqliliklər var, ancaq onların birgə xüsusiyyətləri də çoxdur[13]. Bu bölmədə verilən nümunələrdən də görünür ki, inkarlaşma affirmativlik kimi başa düşülə bilir və bu təbii dildə neqativ cümlələrlə tez tez baş verən hadisədir.

Affirmativlik və neqativliklə bağlı olan qrammatik kateqoriya polarliq, və yaxud qütblük adlanır. Bu isə o deməkdir ki, hər hansı bir birləşmə, cümlə, feil birləşməsi və s. ya affirmativ (pozitiv), ya da neqativ (inkar) polarlığa malik olur, başqa sözlə desək, onun qütblüyü ya affirmativ, ya da inkar olacaqdır. Affirmativlik bir qayda olaraq

---

[12] Kazımov, Q.Ş. Mətn dilçiliyi problemləri (Ə.Abdullayevin "Aktual üzvlənmə və mətn" kitabına ön söz) / Q.Ş.Kazımov. – Bakı: Xəzər Universiteti nəşriyyatı, – 1998. – 190 s.

[13] İsmayıllı, T.M. İnkarlıqla ifadə olunan affirmativlik / – Naxçıvan: "Naxçıvan" Universitetinin Elmi Əsərləri, – 2022. № 1 (24), – s.172-177.

nişanəsiz (işarələnməmiş) polarlıqdırsa, neqativ polarlıq bir çox hallarda işarələnmiş (nişanlanmış, markirə olunmuş) polarlıqdır. Affirmativliyin (təsdiq etmənin) neqativliyə çevrilməsi prosesi dilçilik ədəbiyyatlarında neqasiya kimi qeyd olunur.

Dissertasiyanın **"Affirmativlik və koqnitiv dilçilik modelləri"** başlıqlı ikinci fəslinin I paraqrafı **"Dilə funksional yanaşma və koqnitiv modellər"** adlanır. Koqnitiv dilçiliyin ilkin xüsusiyyəti linqvistik analizi bizim idrak haqqında bildiklərimizə uyğun analiz etməkdir. Funksional dilçilik (funksionalizm) daha çox struktur linqvistikanın bir qolu kimi meydana gələn, dilin ünsiyyət vasitəsi kimi funksionallaşmasına diqqəti yönəltməsi ilə xarakterizə olunan məktəb və cərəyanların cəmidir. Əsas koqnitiv prinsip dilin məna haqqında olmasıdır, dildə olan hər şey mənanı çatdırmaq məqsədi daşıyır və bütün linqvistik vasitələr mənanı ünsiyyət zamanı çatdırmaq üçün icad edilib.

Dissertasiya işinin II fəslin I paraqrafının I bölməsi "**Dilə konstruktiv yanaşmalar"** adlanır.

Affirmativliyin səciyyəvi konstruktiv başa düşülmələri onun daxili quruluşunda və mürəkkəblik dərəcəsində fərqlənə bilər. Konstruktiv yanaşmanın qrammatik kateqoriyada ortaya çıxan əsas semantik nüanslardan bəhs edərkən çoxlu üstünlükləri olduğu görünür. Affirmativlik həm leksik, həm qrammatik işarəli olaraq çoxlu kateqoriyaları əhatə edərək dərəcəvi fenomen kimi bütün xüsusiyyətləri daşıyır. Bundan əlavə onun konstruktiv ifadələrinin əksəriyyətinin çoxlevelli və hibrid strukturu var.

Koqnitiv dilçilik iddia edir ki, metafor insan dili və idrakının mərkəzində yayılmış xüsusiyyətidir. Metaforlar imkan verir ki, duyğu motor idrakından gələn ənənəvi kodlama subyektiv təcübənin idrak cığırları üçün istifadə edilsin[14]. Beləliklə, konseptual metafor nəzəriyyə bir ideya və ya konseptual idrakın necə başqa birinin şərtləri altında dərk edilə bilməsini izah edir. Konseptual yanaşmada metaforlar mənbə cığırından hədəf cığırına keçid edən idrak cığırının dönüşümüdür. Konseptual metaforaların ən görkəmli xüsusiyyəti

---

[14] Шевякова, В.Е. Актуальные членение предложения / В.Е.Шевякова. – Москва: Наука, – 1976. – 135 с.

mənanı qoruyub saxlamasıdır.

Hər bir dildə məkani əlaqələr sistemi vardır. Əslində, məkani əlaqlər reallıqda obyektiv deyil, yəni daha çox onlar bizim gördüyümüz məkanlar vasitəsilə düşüncəmizdə sıralanır. Başqa sözlə ideyalar dünyada öz özünə sadə şəkildə fırlanmır, yəni bunun əvəzində onlar beynimizdə yaradılır və kodlanır. Bu da ən mühüm fundamental və primitiv koqnitiv mexanizmi sistemdə formalaşdırmaq imkanı verir.

Dissertasiya işinin II fəslin I paraqrafının II bölməsi "**Affirmativlik və koqnitiv modelləşmə"** adlanır. Koqnitiv modelləşmənin ən aktiv sahəsini belə bir sual düşündürür. Biz qavrayış varlıqlarını necə öyrənirik. Koqnitiv model kateqoriyalaşmasını prototip modeli adlandırmaq olar. Bu modelə görə, insan hər kateqoriydan olan nümunələri həyat boyu öyrənir. Yəni bir hədəf təqdim ediləndə bu hədəfin bənzərliyi hər bir kateqoriya üçün ayrıca dəyərləndirilir və yaddaşda saxlanılır. Koqnitiv dilçilər üçün dilin dərk edilməsi sadə bir mental proses deyil. İnsan hər hansı bir nitqə qulaq asanda, bir mətn oxuyanda əks tərəfdə olan dinləyicidən tam fərqli prosesdə olur. Koqnitiv bir model konsepti ya dərəcələndirərək, ya da dərəcələndirilməyərək xarakterizə edilir. Koqnitiv modellərin ideallaşmış xarakteri də var.

Dissertasiya işinin II fəslinin II paraqrafı **"Affirmativlik modallığın ifadə forması kimi"** adlanır.

Bu bölmə affirmativliyin modallığın bir növü olduğunu və onun ifadəsinin sintaktik və leksik işarələri əhatə etməsini araşdırır. Affirmativ modallıq, ümumilikdə, linqvistik eyniləşdirməyə daha davamlıdır və ən azı üç səbəbdən analiz edilməlidir. Bunlara daxildir: a) formal işarələnmə dərəcəsinin fərqlənməsi b) birdən çox qrammatik kateqoriyaya üzv olmaq c) digər modal kateqoriyalar, xüsusilə, fikirə münasibət bildirməyə yaxın bağlılıq. Modallıq dil sistemində yeni yaranan bir fenomen deyil. Modallıq məfhumu təkcə dilçilikdə deyil, fəlsəfə, psixologiya, məntiq, riyaziyyat və semiotikada da araşdırılır. Fəlsəfədə ontoloji modallıq, məntiqi modallıqda fikrin deyilmə dərəcəsi, yəni onun üslubi reallığından danışılır.

Fikrimizcə, affirmativliyin semantikasını hesaba almamaq və onun formal xüsusiyyətlərini məhdudlaşdırmaq tamamilə yanlış yanaşmadır. Affirmativlik digər modallıq növləri kimi eyni vəziyyətin

dəyərləndirilməsi və onların müxtəlif dünyalarda mövcudluğu ilə əlaqələdir.

Modallıq sahəsində geniş mənada əksər tədqiqatçılar cümlənin bir hissəsinin dəyişilməsini və ya danışanın münasibəti ilə cümlənin məğzini də hesaba almaqla xüsusiləşməsini nəzərdə tuturlar. Affirmativlik modallığın növü kimi dominant kateqoriyadır. Modallıq danışanın fikir və münasibətlərinin qrammatikləşməsidir. Modallıq potensial gerçəkliklər də daxil aktual akt və faktların subyektiv qiymətləndirilməsi ilə də baş verir. Affirmativ modallıq durumunda danışanlar öz fikirlərini ya vurğulamaqla, ya da əlavə komponent kimi dedikləri fikrin semantik strukturuna pozitiv dəyər ötürməklə həyata keçirirlər. Bu növ affirmativ qütblük, inkarlaşmaya əks və ya neqativ kontekslərdə irəli çəkilir. Modallığın digər növləri kimi affirmativlik leksik, sintaktik və praqmatik olaraq ifadə edilə bilər. Lakin əksər hallarda zəif affirmativlik qapalı, formal olaraq işarələnməmiş kateqoriyadır. Güclü affirmativlik modallıq köməkçi fellərin geniş variantı, ya da daha inkişaf etmiş konstruksiyaları ilə ifadə edilir, zəif affirmativ modallıq isə qısa variantlarda olur.

*The Chinese restaurant will fall down-the Chinese restaurant will **definitely** fall down (Çin restoranı uçacaq- Çin restoranı, **mütləq,** uçacaq)*[15].

Modallıq mənanın inkar ilə təsdiqi arasında yerləşir, yəni prosesin gerçəkləşib gerçəkləşmədiyini göstərir. Sosial konteksdə insan dil istifadəçisi kimi öz linqvistik təcrübəsini mübadilə edir. Bu fikir mübadiləsində dil istifadəçisi öz təklif və şərhini də verə bilir. İngilis dilində affirmativ modallar bir çox qrammatik vasitələrlə dərk edilə bilir.

Amma modal sözlərin ən zəif xarakterik xüsusiyyətlərindən biri onun nə xalis qramamtik, nə də leksik kateqoriya olmasıdır. Qrammakitləşmə yanaşması ilə baxsaq, güman ki, modallığın üç əsas linqvistik gerçəkləşməsi vardır və bu leksik, qrammatik davamlıqda önəmli nöqtələrdə qurulmuşdur. Modallıq işarələrinin ilk qrupu leksik vahidlərdən qurulmuşdur.

Məsələn, əsas fellər – want\istəmək, require\tələb etmək, sug-

---

[15] Oxford English Dictionary // https://www.dictionary.com/browse/definitely

gest\təklif etmək, insist\israr etmək, think\düşünmək, believe\inanmaq və zərflər – probably\güman ki, possibly\mümkündür, necessarily\lazımdır, indeed\əslində, actually\faktiki olaraq, truly\doğrusu və s. İkinci qrupa isə analitik işarələr olan köməkçi fellər-is\are\am\was\were\have\has\had və modal fellər olan – can\could\ may\ might\ shall\should\ will\ would\must daxildir. Ən son isə modallığın ən qrammatik tipi morfoloji (inflectional - səs tonunun dəyişməsi) işarələnməsi ilə təyin edilən formasıdır[16]. İngilis dilində çoxlu sayda modallıq formalarını ifadə edən leksik və qrammatik çeşidli vasitələr vardır. Baxmayaraq ki, iki sinif deyktik və epistemik modallıq çox geniş yayılmışdır. Əslində, əksər modal fellər onlardan heç ikisindən birinə də aid deyil, yəni onların ifadəsi baş verdikləri konteksdən asılı olur.

*He **must** come - O, gəlməlidir (deontic m).*

*He **must** have come yet - O, gəlmiş olmalıdır (epistemic m).*

Modallıq növləri arasındakı qarışıqlıq intensivlik fərqləri və bu növlərdən biri ilə ifadə olunan semantikası faktına əsaslanır. Hazırkı analiz vasitəsilə affirmativliyə dərəcəli və çoxmənalı kateqoriya kimi baxılır və prototip əsaslı strukturlara əsaslanır. O, çoxmənalıdır, çünki ayrı-ayrı qarşılıqlı əlaqəsi mənalar şəbəkəsi kimi başa düşülür. Çoxmənalılıqdan ayrı olaraq affirmativ modallıq dərəcələnmə kimi digər prototip effektləri göstərir. Buradan belə bir nəticəyə gəlmək olar ki, affirmativlik çox çeşidli şkalar fenomendir. Onun ikidən çox əsas (güclü \zəif) nöqtələri linqvistik ifadələrini əlaqələndirir.

Affirmativ modallıq leksik gücləndiricilər və çoxsaylı manipulyasilayar, affirmativ konstruksiyalar, önə keçirmələr, affirmativ formaları ikiqata çıxarmaq, dəfələndirmə effekti verən bağlayıcıların təqdim edilməsi ilə gücləndirilə bilir[17]. Modallıq təbii dilin ən mühüm xüsusiyyətini təşkil edir. Danışanın mərkəzdə dayandığı və daxilən subyektivlik xüsusiyyəti affirmativliyi modallığın çox mücərrəd növü edir. Affirmativ modallığın güclü formalarının formal ifadəsi köməkçi

---

[16] Məmmədov, A.Y. Diskurs tədqiqi / A.Y.Məmmədov, M.Y.Məmmədov. – Bakı: – 2013. – 78 s.

[17] İsmayıllı T.M. Affirmativlik modallığın ifadə forması kimi / – Naxçıvan: Axtarışlar. AMEA Naxçıvan Bölməsi İncəsənət Dil və Ədəbiyyat İnstitutu, – 2022. № 1 (16), – s.84-89.

fellərin uzun, tam forması və güclü variantları ilə ifadə edilməyə meyllidir və dil sisteminin idarəsindədir. Fikir bildirməyə istinad etməklə danışanın məqsədi həmsöhbətin fikrində yaranan mental ifadəni düzəltmək və ya dəyişdirməkdir. Affirmativlik modallığın bir növü kimi modallığın digər növləri ilə müqayisədə daha çox işlənir. Beləliklə, həm funksional, həm də formal olaraq modallığın fərqli bir növü hesab edilir. Yalnız ziddiliklə (qütblüklə) məhdudlaşa bilmir. Məsələn, *bacarmaq (ability)* (*I can speak English-Mən ingiliscə danışa bilirəm*) və ya məcburiyyət (*the door must be closed- qapı örtülməlidir*)**.** Modallıq kimi affirmativlik ona görə işlədilir ki, olasılıq və subyektlilikdə situasiyaları əsaslandırır.

Dissertasiya işinin II fəslinin, II paraqrafının "**Mürəkkəb və budaq cümlələrdə affirmativ modallıq"** başlıqlı I bölməsində güclü affirmativ modallığın çox vaxt mürəkkəb cümlələrin hissələrində tətbiq edilməsindən bəhs edilir ki, orada danışan verilən məlumatın bir hissəsini vurğulamaq istəyir. Affirmativlik mental prosesdir və dil istifadəçiləri tərəfindən verilmiş fikrə əlavə edilir. Affirmativ modallığın semantik məzmunlu və müxtəlif formalı struktural gerçəkləşmələrlə əhatələnməsi, çox zəif və abstraktdan güclü və vurğulu ifadələrə qədər sıralana bilməsindən bəhs edilir.

Dissertasiya işinin II fəslinin, III paraqrafı "**Affirmativliyin realizə olunmasında koqnitiv konstruksiyalar**" adlanır. Affirmativ mənalar yaradan çoxsaylı konstruksiyalar təhlilə cəlb olunmuşdur. Konstruksiya məna və formanın bənzərləşməsi, semantika və sintaktika arasında koqnitiv bir körpü kimidir. Forma və məna ayrılmaz şəkildə iç - içə olduğundan konstruksiya analizatoru sintaktik və semantik funksiyaları yerinə yetirərək, təhlil edərək sintaktik bir şəbəkə yaradır və konstrukiv təhlil adlanan semantik əlaqələr formalaşdırmış olur.

Müasir dilçilik tədqiqatları dilin məna sahələrinə kommunikativ və koqnitiv aspektlərdən daha çox müraciət olunması ilə diqqəti cəlb edir. Bu cür araşdırmalarda sözün, eləcə də paradiqmaların məna strukturunun, sözlərin sintaktik üzv çərçivəsində semantikasının, cümlə, frazeoloji vahid, kontekst və mətn halında semantik yaxınlaşmanın, uzaqlaşmanın, əlaqələnmənin, ümumi məzmunun his-sələrinin ifadə etdikləri mənanın cəmlənməsi ilə müəyyənləşdiril-

məsinin öyrənilməsinə daha çox fikir verilir[18]. Sözün ifadə etdiyi mənanın koheziya əsasında fərqli komponentlərlə əlaqələr zəminində aşkarlanmasına, ekstralinqvistik amillərin mənaya təsirinin, leksik vahidin məna və mətnyaratmadakı rolunun nəzərə alınmasına kommunikativ dilçilik baxımından ehtiyac yaranmışdır.

Xəyali kəmiyyətləndiricilər və bağlayıcılar affirmativ xəbər işarələri kimi müstəsna rol oynayır. Onların semantik xüsusiyyətləri xaricində daha yüksək səviyyəli konstruksiyalar yaradılır və bunlar afirmatliyin işarələnməsində istifadə edilir. Ancaq qeyd olunur ki, affirmativlik konteksə həssasdır və hər hansı xüsusi dil elementləri və qrammatik konstruksiyalarla limitli deyil. Dildə affirmativliyi analiz etmənin yollarından birinin onun struktural əlaqələrini araşdırmaq olması da vurğulanır.

İkinci fəsilin III paraqrafının "**Bağlayıcılar vasitəsilə affirmativ işarələnmə**" adlı I bölməsində göstərilir ki, bağlayıcı semantik xüsusiyyətinə görə affirmativliyi ifadə edərək onun iştirakçısı funksiyasında çıxış edir. Dildə mövcud olan bağlayıcılar affirmativliyin ifadəsinin məntiqi iştirakçılarından biri olur. Vurğulanır ki, "və"-"and" bağlayıcısının önəmli funksiyası olan təkrarlanma funksiyası affirmativliyin işarələnməsi prosesində effektlidir. Məsələn, **over and over, through and through, higher and higher.**

*The sound of the fire* ***louder and louder,*** *and then James was at my head. He spose to me quietly: "Come, my beauty, we have to go now wake up and come with me. We'll soon get out of this smoke". (Atəşin səsi getdikcə daha da yüksəlirdi, sonra isə Ceyms təpəmdə idi. O, sakitcə mənə yaxınlaşdı: "Gəl, gözəlim, indi getməliyik, oyan və mənimlə gəl. Tezliklə bu tüstüdən çıxacağıq")*[19].

Eyni formada təkrarlamaqla danışan faktı, yaxud hansısa real bir vəziyyəti vurğulamaq istəyir. Önə keçirməklər, ikiqatlaşdırma, kəmiyyətləndirmə kimi alt konstruksiyalar da affirmativ mənanı gücləndirir. Xüsusi affirmativ konstruksiylar öz daxili xüsusiyyətlərini digər konstruksiyalardan alırlar, bu da bir və daha çox konstruksiya-

[18] Хэллидей, А.К. Место "функциональной перспективы предложения" в системе лингвистического описание / А.К.Хэллидей. Перевод с англ.языка в новое в зарубежной лингвистике. – Москва: – 2008. – с.138-149.
[19] A.Swelf, "Black Beauty", Pearson English readers, – 2019. – p.12

ların hiyerarxik konfiqurasiyasının artmasına aparıb çıxarır.

Tədqiqatdan aşağıdakı **nəticələr** əldə olunmuşdur:

1) Müxtəlif elmlərin, xüsusilə, dilçilik və fəlsəfə elminin nümayəndələrinin affirmativliyə yanaşmasını da nəzərə alsaq, pozitiv nümunələrin inkarlara görə idraki olaraq öndə olmasının səbəbi, təsdiqlərin daha bəsit olması və inkarların təsdiqlərə əlavə (inkarlayıcılar) edilərək əldə edilməsidir.

2) Dildə affirmativliyin ilkin xüsusiyyəti gərək koqnitiv koordinasiya şərtlərində başa düşülsün. Çünki affirmativlik koordinatları dəyişkən olan linqvistik kateqoriya kimi digər linqvistik kateqoriyalarla sıx əlaqədədir. Affirmativlik subyektiv, epistemik və danışan mərkəzlidir. Affirmativlik funksional-semantik kateqoriya olaraq funksional dil stillərində ifadə edilir.

3) Affirmativliyin qrammatikada ən mühüm göstəricisi əkslik konteksi olsa da, bu qrammatik qaydanın eyni prinsipini koqnitiv dilçilikdəki affirmativ anlayışına aid etmək doğru deyil. Onun semantik quruluşu ilə birlikdə məntiqli bir metalinqvistik kateqoriya kimi digər elmlərlə, məsələn psixologiya, məntiqlə olan əlaqəsi qrammatikanın bu qaydasının koqnitiv dilçilik nöqteyi-nəzərən afirmasiya üçün keçərli olmadığını göstərir. Koqnitiv idrak prosesində affirmativliyin həm də məntiqi və metalinqvistik bir kateqoriya olduğunu nəzərə almalıyıq.

4) Affirmativlik kateqoriyası leksik, qrammatik və sintaktik dil mərhələrində ifadə edilir. Danışıq və bədii əsərlərin dilində əsas nitq hissələri affirmativlik kateqoriyasının identifikasiyası nüvəsinə məxsusdur. Alt qrup identifikasiyaya isə ədatlar, modal sözlər, nidalar, leksemlər, idiomlar, frazeoloji strukturlarla təmsil olan söz-cümlələr daxildir. Müxtəlif inkar ifadələrlə affirmativlərin ifadəsinin tək məqsədi cümlədəki affirmativlərin gücünü önə çıxarmaqdır. İkiqat inkarlılıq, metalinqvistik inkar lazımsız dil fenomeni deyil, afirmasiya yaratmaq üçündür.

5) Jestlər, mimiklər, müxtəlif bədən hərəkətləri də daxil, linqvistik və qeyr-linqvistik ifadə vasitələri affirmativlərin çatdırılmasında mühüm rol oynayır. Jestlər və nitq bir bölünməzdir. Semantik baxımdan da ayrılmaz bir ikilidir, sistem halındadır. Kultural

fərqliliklər bəzən affirmativlik ifadə edən jestlərin anlaşılmazlığına səbəb ola bildiyi üçün mədəniyyətlərarası ünsiyyətdə bu fərqliliklər nəzərə alınmalıdır.

6) Affirmativ mənalar əmələ gətirən konstruksiyalar "əhatəlilik", "əlavə etmə", "tamlılıq" mənaları ehtiva edirlər. "Tamlıq" mənası affirmativliyin ifadəsinin ən prototip yollarından biri və vacib elementidir.

7) Affirmativlik müəyyən dinamik mental əməliyyatların linqvistik göstəricisidir. Psixologiyada self-affirmativlik nəzəriyyəsi vardır. Bu nəzəriyyə dilçilikdəki affirmativlərlə sıx bağlıdır. Self affirmativlər, yəni öztəsdiqlər insanların özbütünlüklərinin və öztamlıq xüsusiyyətlərinin formalaşmasında mühüm rol oynayır.

8) Affirmativlik implisit və eksplisit olaraq ifadə edilə bilir. Başqa sözlə aşkar və gizli affirmativlərin formalaşmasında bütün leksik, sintaktik və qrammatik vahidlər iştirak edə bilir. Semantik faktorlar affirmativlik kimi önəmli sintaktik kateqoriyanın başa düşülməsi üçün vacibdir.

9) Affirmativlik qradual fenomen olaraq kateqoriyalaşdırma biliklərində və kateqoriyanın prototip quruluşlarında yerləşir.

10) Modallığın digər növləri kimi affirmativ modallıq leksik, sintaktik və praqmatik olaraq ifadə edilə bilir. Affirmativliyin modallığın növü kimi dominant kateqoriya olmasının səbəbi bu kateqoriyada modallığın danışanın fikir və münasibətlərinin qrammatikləşməsi və daha çox subyektiv münasibəti bildirməsidir. Affirmativ modallıq leksik gücləndiricilər, çoxsaylı manipulyasiyalar, affirmativ konstruksiyaları önə keçirməklər, affirmativ formaları iki qata çıxarmaq, dəfələndirmə effekti verən bağlayıcılar təqdim etməklə gücləndirilə bilər.

11) Afrmativlik qradual kateqoriya olduğu üçün güclü və zəif affirmativ modallıq müxtəlif konstruksiyalarla düzələ bilir. Bundan əlavə təbii dildə xüsusi sinif məntiqi gücləndiricilər də inkişaf etmişdir. Burada ümumi kəmiyyətləndiricilər daxildir. Köməkçi konstruksiyaların ortaya çıxması affirmativ modallıq ifadə etmə vacibliyindən ortaya çıxmışdır.

12) Affirmativliyi qavramanın yollarından biri onun qavrayış metaforal vasitələridir. Bu konstruksiyalarla affirmativliyin mənaları

gücləndirilərək ifadə edilə bilər. Əsas və köməkçi nitq hissələri konstruksiyalar əmələ gətirərək affirmativ mənaların formalaşmasında iştirak edirlər. Dildə elə konstruksiyalar var ki, təbiətcə affirmativ mənaların idrakında konseptləşiblər.

Dissertasiya işinin ümumi məzmunu müəllifin aşağıda göstərilən məqalələrində öz əksini tapmışdır:

1. Koqnitiv dilçilik // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri. Humanitar elmlər seriyası, –2020. №1 (102), – s.140-142.

2. Affirmativliyin koqnitiv analizi // Humanitar və ictimai elmlər üzrə 1-ci Beynəlxalq Elmi Konfransın materialları, – Bakı: –24 iyul 2020,– s.162-165

3. Təsdiqlər. Öz təsdiqlər // – Naxçıvan: Axtarışlar. AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu, – 2021. № 1, cild 15, – s.105-110

4. The role of gestures and mimics in conveying Affirmation concept // – Nijni Novqorod: The Bulletin of Science and Practical Journal in Crossref, – April 2021. – p.120-127.

5. Affirmativlik anlayışının çatdırılmasında paralinqvistik ifadə vasitələrinin rolu // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri. – 2021. № 1 (110), – s.82-86

6. Koqnitiv dilçilikdə bağlayıcılar affirmativ işarəsi kimi // VI Respublika Elmi Qaynaqlar Konfransının materialları, – Bakı: – 4 fevral 2022. – s. 26-29

7. İnkarlıqla ifadə olunan affirmativlik // – Naxçıvan: "Naxçıvan" Universitetinin Elmi Əsərləri, – 2022. № 1 (24), – s. 172-177.

8. Colloquial Expression of the Affirmative Category // – Penza: European Research International Scientific Conference, – 2022. February 7. – p.155-158

9. "All" qeyri-müəyyən əvəzliyi affirmativ işarəsi kimi // VIII Beynəlxalq Elmi araşdırmalar Konfransının materialları. – Bakı: – 26 aprel 2022. – s.30-33

10. Affirmativlik modallığın ifadə formsı kimi // – Naxçıvan: Axtarışlar. AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu, – 2022. № 1 (16), – s.84-89

11. General Cognitive Overview To The Category Of Affirmation // – Satteldorf: German International Journal of Modern Science, – 2022. № 31, – p.53-55

Dissertasiyanın müdafiəsi 25 Oktyabr 2022-ci il tarixində saat 11$^{00}$ - da Naxçıvan Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD 2.39 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Naxçıvan MR, Naxçıvan şəhəri, Universitet şəhərciyi,
AZ 7012, Naxçıvan Dövlət Universiteti

Dissertasiya ilə Naxçıvan Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Naxçıvan Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 22 sentyabr 2022 il tarixində zəruri ünvanlara göndərilmişdir